Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**

# Heydər Əliyev dövlətçilik tariximizdə misilsiz xidmətlər göstərib

## Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir



**Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Nəzarətində Ombudsman Aparatı ilə birgə Ümummilli Liderin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və hüquqi dövlət quruculuğu" mövzusunda tədbir keçirilib. Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən bildirilib ki, əvvəlcə Ulu Öndərin büstü önünə gül dəstələri düzülüb, Vətən müharibəsində şəhid olan Azərbaycan sərhədçilərinin əziz xatirəsinə ucaldılmış abidə kompleksi ziyarət edilib.**

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Ombudsman Aparatının Beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şöbəsinin sektor müdiri Müqalib Mahmudov iştirak edib.

Çıxış edənlər müstəqillikdən sonra kifayət qədər mürəkkəb bir dövrdə hakimiyyətə qayıdan Ulu Öndərin dövlətçilik, qanunçuluq, demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması kimi ali məqsədlərə nail olmaq üçün mütərəqqi addımlar atdığını bildiriblər.

Ümummilli Liderin müdrik siyasəti nəticəsində ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması, milli dövlətçiliyimizin möhkəmlənməsi, məhkəmə-hüquq sisteminin inkişafı, o cümlədən insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə xidmət edən islahatların həyata keçirilməsi istiqamətində çoxsaylı uğurların qazanılması vurğulanıb.

Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbulu və Konstitusiyanın maddələrinin üçdə bir hissəsinin məhz insan hüquq və azadlıqlarına həsr olunması, bu sahədə ilk fundamental sənədin - bu il 25 ili tamam olan Fərmanın və Dövlət Proqramının qəbulu, Ombudsman institutunun yaradılması, vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafının Ulu Öndərin müstəsna xidmətlərindən olduğu xüsusi qeyd edilib. Diqqətə çatdırılıb ki, bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatlar məhz insan hüquqlarının etibarlı müdafiəsinə, vətəndaş məmnunluğuna xidmət edir. Dövlətimizin başçısının vurğuladığı kimi, dövlət siyasətimizin mərkəzində məhz vətəndaş amili dayanır.

Tədbirin sonunda hərbi qulluqçuları maraqlandıran suallar Ombudsman Aparatının sektor müdiri tərəfindən cavablandırılıb.

**Millət vəkili Aydın Mirzəzadə isə qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının və dövlətinin tarixində misilsiz xidmətləri var. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda dövlət quruculuğu və Konstitusiyanın qəbulunda misilsiz rolu olub:** "Ümummilli Lider Azərbaycanda Konstitusiyanın qəbulu ərəfəsində dövlətin möhkəmləndirilməsi istiqamətində atdığı addımlar, Konstitusiyanın hazırlanması, geniş müzakirəsi, onun sonradan fəaliyyət göstərməsinə çox böyük imkanlar verdi. Həmçinin Konstitusiyanın qəbulu ilə bağlı şəraitin yaradılmasından başqa, Heydər Əliyevin Konstitusiyanın tərtib edilməsinə və onun uzunmüddətli bir dövlət sənədi olması üçün beynəlxalq təcrübədən geniş istifadə olunması da böyük maraq doğurdu. İlk növbədə Avropanın, o cümlədən Türkiyənin təcrübəsindən geniş istifadə olundu. Hakimiyyətin bölünməsi prinsipi Konstitusiyada öz əksini tapdı. Sənəddə vətəndaşların hüquq və azadlıqları təsbit olundu, azad sahibkarlıq, mülkiyyətin çoxformalılığı öz əksini tapdı. Konstitusiyada Azərbaycanın demokratik, hüquqi bir dövlət olması üçün geniş bir hüquqi baza yaradıldı. Heydər Əliyev faktoru Azərbaycanda uzunmüddətli dövlət quruculuğunun başlanmasını, Azərbaycanda Konstitusiyanın qəbulundan sonra aparılan böyük islahatların hüquqi bazasını təmin etmiş oldu. Azərbaycanda Konstitusiya qəbulu eyni zamanda dövlətlərə də yaxşı bir nümunə olması üçün şərait yaratdı. Təsadüfi deyil ki, hazırda tədqiqatçılar və tarixçilər 1995-ci ildə ilk Konstitusiyanın qəbulunda Heydər Əliyev təcrübəsini, onun nəzəri və praktiki yanaşmasının çox böyük rol oynadığını dəfələrlə vurğulayırlar".

Millət vəkilinin sözlərinə görə, demokratik hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişafı, insanların hüquq və azadlıqlarının formalaşdırılması, onların müdafiəsinə yönələn səmərəli tədbirlər nəticəsində artıq ölkəmizdə bir çox nailiyyətlər əldə olunub: "Azərbaycanın müstəqillik dövründə əldə etdiyi ciddi uğurlar, sürətli iqtisadi inkişaf yolu ilə bölgədəki stabil lider mövqeyi məhz Ulu Öndərin müəyyən etdiyi dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi ilə bilavasitə bağlıdır.

Demokratik hüquqi dövlət quruculuğu prosesi hazırda Heydər Əliyev dövlətçilik ənənələrinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Ölkəmizdə baş verən sürətli sosial-iqtisadi inkişafı nəzərə alaraq, Avropanın siyasi, iqtisadi və hüquq məkanına inteqrasiyanı dövlət siyasətinin prioritetləri sırasına qaldıraraq demokratik cəmiyyətlərə xas məhkəmə-hüquq sisteminin fəaliyyətinə, insan hüquqlarının etibarlı müdafiəsinə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti mühüm təşəbbüslərlə çıxış edir. Belə ki, hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik və institusional islahatlar daha da dərinləşdirilir. Praktiki tədbirlərin dairəsi isə genişləndirilir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir. Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir... Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

**Şəymən**